*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 2* *ISSN: 2663-4406*
*Səhifə: 130-136* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.2.130*

# Azərbaycan ədəbiyyatının başlanğıcı məsələləri

**Aytən Muşkiyeva**
Dissertant
Gəncə Dövlət Universiteti

**Annotasiya.** Məqalədə Azərbaycan ədəbiyyatşünaslığının təşəkkül mərhələsində ədəbiyyatın başlanğıcı məsələləri araşdırılır. Qeyd olunur ki, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyat tarixçiliyində ədəbiyyatın başlanğıcı məsələləri əsas müzakirə mövzularından biri idi. F.Köçərli, Y.Vəzirov, Ə.Abid, İ.Hikmət, M.F.Köprülü, Ə.Nazim, M.Quliyev, A.Musaxanlı, C.Əfəndizadə, M.K.Ələkbərli kimi tədqiqatçılar məqalə və araşdırmalarında xalqın ədəbi düşüncəsinin haradan başlanması məsələsinə öz münasibətlərini bildirmişlər. Ədəbiyyatın haradan başlanması sualına ilk olaraq XX əsrin əvvəllərində rast gəlinir. Azərbaycan ədəbiyyatının necə adlanmasını araşdırmaq qədər onun başlanğıcını tapmaq da əsas məsələlərdən biri kimi qarşıda dururdu. Araşdırmalara görə, Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbiyyatın haradan başlanması haqqında müxtəlif fikirlər vardır. Bu fikirlərin müxtəlifliyinin bir neçə səbəbi var idi. Hər şeydən əvvəl, ədəbiyyat tariximiz hələ kifayət qədər araşdırılmadığından elmi təsəvvür formalaşmamışdı. İkinci səbəb isə, elmi yanaşmadan irəli gəlirdi.
**Açar sözlər:** ədəbiyyatşünaslıq, ədəbiyyat tarixi, ədəbiyyatın başlanğıcı, anadilli, farsdilli

**Məqalə tarixçəsi:** göndərilib – 13.09.2024; qəbul edilib – 27.09.2024

# The issues of beginning of Azerbaijani literature

**Ayten Mushkiyeva**
Dissertation Student
Ganja State University

**Abstract.** In the article is studied the issues of beginning of literature at the stage of formation of Azerbaijani literary studies. It is noted that at the beginning of the 20th century the issues of beginning of literature was one of the main topics of discussion in Azerbaijani historiography. In their articles and studies, researchers such as F.Kocherli, Y.Vazirov, A.Abid, I.Hikmet, M.F.Koprulu, A.Nazim, M.Guliyev, A.Musakhanli, J.Afandizade, M.K.Alakbarli have expressed their attitudes towards the question of where the literary thought of the people begins. The question of where to begin with literature was first encountered at the beginning of the 20th century. One of the main issues was to discover the beginning of Azerbaijani literature, as well as to study what to name it. According to the research, there were different opinions in Azerbaijani literary studies about where to start with national literature. There were several reasons for this diversity of views. First of all, our history of literature had not yet been sufficiently researched and a scientific imagination had not been created. The second reason was due to the scientific approach.

**Keywords:** literary studies, history of literature, beginning of literature, native language, Persian speaking

**Article history:** received – 13. 09.2024; accepted − 27.09.2024

## Giriş / *Introduction*

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyat tarixçiliyində əsas müzakirə olunan məsələlərdən biri də ədəbiyyatın başlanğıcı məsələləridir. F.Köçərli, Y.Vəzirov, Ə.Abid, İ.Hikmət, M.F.Köprülü, Ə.Nazim, M.Quliyev, A.Musaxanlı, C.Əfəndizadə, M.K.Ələkbərli kimi tədqiqatçılar məqalə və araşdırmalarında xalqın ədəbi düşüncəsinin haradan başlanması məsələsinə öz münasibətlərini bildirmişlər. Azərbaycan ədəbiyyatının sistemli şəkildə öyrənilməməsi, müxtəsər də olsa tarixinin yazılmaması F.Köçərlini narahat edən məsələlərdən idi: “Aya, biz Azərbaycan türklərinin Seretelilləri və Çavçavadzeləri olmayıbdırmı? Bizim milli şairlərimiz ərseyi-dünyaya gəlməyibdirmi? Aya, bizlər belə möhtərəm şəxslərin vücudundan məhrummu qalmışıq?” [1, s.175]. Topladığı ilk materialların nəticəsi olaraq tez-tez rus və Azərbaycan mətbuatında məqalələrlə çıxış edirdi. “Azərbaycan türklərinin ədəbiyyatı” kitabının da dərc oluması bunun ilk ciddi nəticəsi hesab olunmalıdır [2].

## Əsas hissə / *Main Part*

F.Köçərli yaradıcılığını araşdırarkən onun Azərbaycan ədəbiyyatını haradan və kimdən başlanması haqqında qəti bir qənaət təsəvvür etmək çətindir. Çünki F.Köçərli daha çox material toplayır və o materiallardan çıxış edirdi. Diqqət edilərsə, onun 1903-cü ildə nəşr edilən kitabını “Azərbaycan türklərinin ədəbiyyatı” adlandırmışdı, ədəbiyyat tarixi yox. Deməli ki, ədəbiyyat tarixi daha sistemli bir yanaşma tələb etdiyindən kitabın adını məhz bu cür qoymağı üstün tutmuşdur. Ölümündən sonra – 1925-ci ildə dərc olunan kitabının “Azərbaycan ədəbiyyatı tarixi materaialları” adlandırılmasının ən başlıca səbəbi də məhz bu idi. F.Köçərlinin əsərinə yazdığı “Bir neçə söz” müqəddiməsində də kitabın təzkirədən fərqini aydınlaşdırmağa çalışır: “...Amma biz mümkün olduğu qədər də məşhur şüəra və üdəbamızın həm tərcümeyi-hallarına və həm asari-qələmiyyələrinə dair ətraflı məlumat vermişik” [3, s.69]. Nəzərə alsaq ki, bu əsər yazılmasından iyirmi il sonra işıq üzü görmüşdür, o zaman hər gün dəyişən, inkişaf edən ədəbi mühiti razı salacağını da söyləmək doğru olmazdı. Görünür buna görə də H.Zeynallı İ.Hikmətin “Azərbaycan ədəbiyyatı tarixi” kitabı haqqında resenziyasında bu əsəri xatırlayaraq yazırdı: “1924-26-cı illərdə çapdan çıxmış Köçərlinin “Azərbaycan ədəbiyyatı tarixi materialları” elmi bir tədqiqat əsəri olmadığı üçün İsmayıl Hikmətin çıxarmış olduğu bu əsər böyük əhəmiyyət almaqdadır” [4, s.61]. F.Köçərlinin kitabında həm anadilli, həm də farsdilli ədəbiyyata yer versə də, onları sistemləşdirməmiş, ədəbi prosesin mahiyyətini açmağa çalışmamışdır. Bu səbəbdən də onun yaradıcılığında Azərbaycan ədəbiyyatının haradan başlanması sualına cavab axtarmalı olsaq, əliboş qalarıq. Bunu nəzərdə tutan R.Qənbərqızı belə bir doğru qənaətə gəlir: “F.Köçərlinin doğma ana dilində yazan Azərbaycan klassiklərindən Həsənoğlu, Xətai, Həqiqi, Qazi Bürhanəddin və Əmanidən heç bir yerdə bəhs açmaması, bir kəlmə belə danışmaması isə başqa səbəblərlə bağlıdır: alim ya bu yazıçıların yaradıcılığından xəbərsiz olmuş, ya da sadəcə onların haqqında mötəbər bir məxəz əldə edə bilməmişdir” [5, s.45].

F.Köçərli çoxəsrlik Azərbaycan ədəbiyyatının tarixini XVIII əsrə aid edir. Gəncədən bəhs edərkən Əbül-üla Gəncəvi və Nizami Gəncəvidən də bəhs edir. Şirvan şairləri içərisində Nəsimidən bəhs etməsi də göstərir ki, F.Köçərlinin klassik ədəbiyyat haqqında müəyyən təsəvvürü olmuşdur.

Fikrimizcə, bu şairlərin şeirləri ondan əvvəlki təzkirələrdə yer aldığından onları toplamağı lazım bilməmişdir. Maraqlıdır ki, F.Köçərlidən cəmi bir neçə il sonra Salman Mümtaz Azərbaycan ədəbiyyatı tarixini min iki yüz illik bir tarixə apararaq yazırdı: “Azərbaycan ədəbiyyatı yoxdur deyən naümidlər məhz o andan biləcəklər ki, biz min iki yüz illik möhtəşəm bir ədəbiyyata malikik və tarixi ədəbiyyatımız Vaqifdən deyil, çox-çox irəlidən başlayır” [6, s.327]. Tədqiqatçı əmindir ki, təbii mədənlərimiz aranıldığı kimi ədəbiyyat xəzinələrimiz də aranılmalı, axtarılmalıdır. Onun fikrincə, qədim ədəbiyyatımızdan bixəbər olanlar yeni ədəbiyyatımızda da mühüm mövqelər tutmaqdan aciz olarlar. Tədqiqatçı bu fikrinə “Başlanğıc” adlı məqaləsində də qayıdır. Azərbaycan ədəbiyyatının bütün nöqtələrdə qaranlıqda qaldığı kimi, XII-XIII əsr ədəbiyyatımızın da “tamamilə qara dumanlar altında” qaldığını bildirir və ondan əvvəl gələn yazıçılarımızın ədəbiyyatımız tarixindən yalnız “Vaqif ilə Vidadini göstərə bilmişlər” [6, s.25] deyərkən çox güman ki, F.Köçərlini nəzərdə tutmuşdur. Mustafa Quliyev F.Köçərlinin bu əsəri haqqında yazırdı: “Müəltəəssüf, onun talif edib Azərnəşr tərəfindən nəşr edilən kitablarına da elmi bir əsər kimi baxmaq mümkün deyildir” [9, s.49]. F.Köçərlinin ədəbiyyat tarixi materiallarına bu cür qiymət verməsini təəccüblə qarşılamaq lazım gəlmir. Əslində isə sonrakı dövrlərdə ədəbiyyat tarixinin yazılmasında F.Köçərlinin bu əsəri bir mənbə rolu oynamışdı.

Şair Həbibinin taplıb üzə çıxarılmasında və dəyərləndirilməsində S.Mümtazın araşdırmalarının böyük rolu vardır. Hələ 20-ci illərdə Nizaminin fars şairi hesab olunduğu bir zamanda S.Mümtaz onun yaradıcılığı haqqında “Şeyx Nizami” məqaləsində Nizamini Azərbaycan şairi hesab edərək yazırdı: “Nizaminin farsca yazması əgər eyib sayılırsa, bu da yanlışdır. Zaman, mühit və məkan nəzərə alınmalıdır. O əsrlərdə İran və Turanın yetirdiyi türk müşahirinin çoxu-Əbu Nəsr Fərabi, Əbu Əli Sina, Cəlaləddin Rumi, Şeyx Mahmud Şəbüstəri türk dilli ola-ola farsca yazmışlar. Bunların səbəbləri aranılmalı və tədqiq edilməlidir” [6, s.349]. S.Mümtaz ədəbiyyat tariximizin ən böyük şəxsiyyətləri haqqında ilk dəfə məlumatlar vermiş, onların yaradıcılığı haqqında ilk söz demişdir. Belə şairlərdən biri də Nəsimi olmuşdur. Onun Nəsimi haqqında qənaətləri, demək olar ki, bugünkü nəsimişünasların tədqiqatlarının əsasını təşkil edir. Təkcə Nəsiminin doğulduğu yerin Şamaxı olması qənaəti, qardaşı Şah Xəndanın onu şəriət qanunlarına zidd şeirlər yazmaqdan çəkindirməsi və s. məsələlər S.Mümtazın tədqiqatları sayəsində mümkün olmuşdur.

S.Mümtaz altı yüz il əvvəl yaşamış Həsənoğlu, Yunis İmrə, Molla Qasım Şirvani, Safi, Şahi, Şah Xətai, Mirzə Şəfi, Nəvai, Füzuli, Azəri Çələbi və b. onlarla görkəmli Azərbaycan şairlərinin şəxsiyyətini və ədəbiyyat tariximizdəki yerini müəyyənləşdirib. Bütün bunlar onu göstərir ki, S.Mümtaz ədəbiyyat tarixi yazmasa da, onun tarixçiliyi haqqında geniş bilgiyə sahib olmuşdur. O, şairlərin yaradıcılığına da qiymət verməyi bacarırdı. Onun “Kommunist”, “Şərq qadını”, “Maarif və mədəniyyət”, “Maarif işçisi” və b. jurnal, qəzet və məcmuələrdə çap etdirdiyi çoxsaylı məqalələrə əsasən bir ədəbiyyat tarixi təsəvvürünə malik olduğunu söyləmək mümkündür. Onun tədqiqatçılarından olan Rasim Tağıyevin yazdığı kimi: “S.Mümtaz gözəl tədqiqatçı, məşhur ədib olmaqla yanaşı, eyni zamanda gözəl tarixçidir. Çünki o, öz araşdırmalarında tarixi məsələləri və nəzərdən qaçırmamış, əksinə, onlara diqqət yetirmiş və maraqlı elmi nəticələr çıxarmışdır” [7, s.17].

Əmin Abidin ədəbiyyat tarixinin haradan başlanması məsələsində isə tamamilə başqa bir cəhət öz orijinallığı ilə seçilir. “Azərbaycan türklərinin ədəbiyyatı tarixi” əsərinin ön sözündə türk ədəbiyyatının bir silsilə halında araşdırılmasının tərəfdarı kimi çıxış edir: “Türk ədəbiyyatı tarixinin bir silsilə halında tədqiq edilməsinin lazım olduğunu qəbul edənlərdəniz. Bununla bərabər türk ədəbiyyatını müxtəlif dövrlərə, müxtəlif ləhcələrə ayırıb da-ümum təkamül xəttini buraxmadan tədqiq etmənin daha qolay bir yol olduğu qənaətindəyiz” [8, s.25[.

İ.Hikmətin “Azərbaycan ədəbiyyatı tarixi” əsərində Azərbaycan ədəbiyyatının haradan başlanması haqqında ayrıca pararqraf açılmamışdır. Lakin tədqiqatçının ədəbiyyat tarixinin tərtibindən belə anlaşılır ki, milli ədəbiyyat tarixini anadilli ədəbiyyatdan başlamaqla yanaşı, islamiyyətdən miladi XIII əsrə qədərki dövrə də nəzər salır. Lakin bu icmal daha çox tarixi,

etnoqrafik səciyyə daşıyır. İcmaldan məlum olur ki, tədqiqatçı VIII və IX əsrlərdə türk mühitlərində davam və inkişaf edən sxolastik və islami ədəbiyyatı Səlcuqlular ədəbiyyatının varisi hesab edir: "Mahmud Kaşğarinin Haqaniyə türkcəsi deyə adlandırdığı lisanla Şərq türklərinin "Qudatqu bilgi"ləri yaratdıqları əsrlərdə Oğuz türkcəsi ilə də ədəbi əsərlər yaradıldığı mühəqqəqdir. Xüsusən ki, o əsrdə Oğuz hars və mədəniyyəti Uyğur hars və mədəniyyətindən heç aşağı deyil, bəlkə də yuxarı idi. Bu qədər var ki, bu ədəbiyyat yenə islami çərçivə daxilində dar görüşlü, dar duyuşlu, müəyyən məfkurə və məhdud zövqlü bir ədəbiyyat idi" [10, s.81].

İ.Hikmət də Ə.Abid kimi Azərbaycan ədəbiyyatının başlanğıcını xalq ədəbiyyatından götürür. Türklərdə dil, ədəbiyyat, sənət kimi məsələlərdə Orxan, Turxan, Yenisey abidələrinə daha çox diqqət yetirir və bu üçlük vasitəsilə türk tarixinin örtən qalın və qaranlıq pərdəsini aradan qaldırdığını düşünür. Belə bir fikir irəli sürür ki, Səlcuqlular zamanında yetişmiş və bu gün də işlədilən və anlaşılan qarışıq bir türkcə ilə əsərlər yazmış bir çox şairlərin olmasına baxmayaraq, bunların əsərləri də küncdə-bucaqda qalmışdır: "VIII-IX əsrlərdə türk mühitlərində davam və inkişaf edən bu sxolastik və islami ədəbiyyat Səlcuklular ədəbiyyatının həqiqi varisidir. Mahmud Kaşğarinin Hakaniyə türkcəsi deyə adlandırdığı lisanla şərq türklərinin "Kudatqu bilgi"ləri yaratdıqları əsrlərdə Oğuz türkcəsi ilə də ədəbi əsərlər yaradıldığı mühəqqəqdir. Xüsusən ki, o əsrdə Oğuz hars və mədəniyyəti, Uyğur hars və mədəniyyətindən heç aşağı deyil, bəlkə də yuxarı idi" [10, s.81].

M.F.Köprülü də Azərbaycan ədəbiyyatını XIII əsrdən başlayır. Görünür ki, Azərbaycan ədəbiyyatı dedikdə daha çox anadilli ədəbiyyatı nəzərdə tuturdu. "Azəri ədəbiyyatı" əsərində yazırdı: "Bildiyimiz ilk Azəri klassik şairi Həsənoğludur. Xorasan oğuzlarından yetişmiş və XIII əsr sonlarında yaşamışdır. Divanı XV əsrdə Anadoluda və Azərbaycanda mərufdu" [11, s.386]. Göründüyü kimi, M.F.Köprülü anadilli şair Həsənoğlunun "Divan"ının da olduğunu mənbə göstərməsə də bildirir. "Azəri ədəbiyyatının təkamülü" əsərində də əvvəlki fikrini daha da inkişaf etdirərək Həsənoğlunun türkcə və farsca qəzəllər yazdığını Şeyx İzzəddin Əsfərainlinin divanının XV əsrdə Azərbaycan və Anadoluda çox məşhur olduğunu Dövlətşah Səmərqəndiyə istinad edərək yazır [12, s.51].

M.F.Köprülü Azərbaycan ədəbiyyatının başlanğıcını konkret olaraq Həsənoğludan başladığı halda, nədənsə Ə.Nazim onun bu fikrini təhrif edərək bu başlanğıcı XV-XVI əsrlərə gətirib çıxarır: "Azərbaycan ədəbiyyatının müstəqil formalaşmasını İranda Səfəvilər sülaləsinin və kiçik Asiyanın qərbində Osmanlı imperiyasının yaranması ilə əlaqələndirən türk ədəbiyyatı tarixçisi Köprülüzadənin qənaətinə müvafiq olaraq Azərbaycan ədəbiyyatının başlanğıcını XV-XVI əsrlərə aid etmək daha həqiqətə uyğundur" [13, s.101]. Ə.Nazim burada Köprülüzadəyə istinad etsə də, bu istinadın heç bir əsası yoxdur. Çünki yuxarıda göstərdiyimiz kimi, M.F.Köprülü Azərbaycan ədəbiyyatını Həsənoğludan başlamağı daha məqsədəuyğun hesab edir. Ə.Nazimin təkcə bu fikirləri deyil, bu fikirlərin yer aldığı "Azərbaycan ədəbiyyatı" məqaləsində gedən digər yanlışlıqları da çox doğru olaraq Ə.Abid tənqid etmişdir: "Halbuki Azərbaycan ədəbiyyatının XIII əsrdə Həsənoğlu ilə başlandığını ilk dəfə elm aləmində müdafiə edən başqa şərqiyyatçılar deyil, yenə Köprülüzadədir... Nazim Köprülüzadənin fikirlərini qavramadığından onun tələqqilərini ikiyə ayırmış, birini nədənsə adını qeyd etmədiyi şərqiyyatçılara mal edir, ikinci yarısını da Köprülüzadəyə verir" [14, s.31]. Qeyd edək ki, M.F.Köprülü Azərbaycan ədəbiyyatının Həsənoğlu ilə başlanması fikrini ilk dəfə olaraq özünün "İlk mütəsəvviflər" (1918), "Azəri ədəbiyyatına aid tədqiqlər" (Bakı, 1926) adlı əsərlərində yazmış, sonrakı tədqiqatlarında da bu fikrinin üzərində qalmışdır.

İstər İ.Hikmət, istərsə də M.F.Köprülü ədəbiyyatın mənşəyini dil tarixindən götürürdülər. Bu da çox zaman dövrün ideoloji təzyiqlərinə məruz qalırdı. Hətta sonrakı ədəbiyyatşünaslıq da çox zaman bu qənaətlərlə razılaşmırdı. Ədəbiyyatşünas N.Şəmsizadə "Azərbaycan ədəbiyyatşünaslığı" monoqrafiyasında bu tendensiya ilə razılaşmayaraq yazırdı: "Türk ədəbiyyatşünasları M.F.Köprülüzadə və İ.Hikmətin ədəbiyyat tarixlərinin də əsas qüsuru ümumtürk kontekstindən çıxa bilməmələri

idi. Vahid türk ədəbiyyatı anlayışı onları konkret bir xalqın, məsələn, Azərbaycan ədəbiyyatının tarixi səciyyəsini, bədii özünəməxsusluğunu əhatəli görməyə imkan vermirdi" [15, s.104]. Fikrimizcə, N.Şəmsizadənin bu fikri daha çox ədəbiyyatımızın başlanğıc nöqtəsinə aiddir. Elə son illərdə ədəbiyyat tariximizin ortaq türk ədəbiyyatından başlanması fikrinin artması da onu göstərir ki, Azərbaycan ədəbiyyatının başlanğıcını orada axtarmaq daha doğrudur.

M.Quliyevin ədəbiyyata, ədəbiyyat tarixi və sənətə baxışında daha çox proletar mövqeyi önə çəkilir. O, ədəbiyyata, sənətə baxışında yenilik tərəfdarı olduğunu sübuta yetirmək istəyirdi. Lakin bu zaman proletar, marksist mövqeyi onun obyektiv mövqe bildirməsinə mane olurdu. Ədəbiyyatda klassizmi, sənətdə yenilikçiliyi təqdir etməsi Füzulini, tarı, muğamı inkar etməsinə qədər gətirib çıxarmışdır. Oktyabr inqilabının təsiri altında ədəbiyyatda və sənətdə ancaq nikbin ruh axtarır, pessimizmi qətiyyən qəbul etmirdi. Hətta klassik ədəbiyyatı belə təftiş edərək onu pessimizmdə günahlandırırdı: "Füzulinin qəzəlləri pessimizmlə yoğrulmuşdur: şair həyatın boşluğundan və faniliyindən şikayətlənir. Şair-filosof "Onu bilmək kifayətdir ki, heç nəyi bilmək olmaz" deyir və onun epoxasının bütün səbatsızlığı bunda ifadə olunur" [7, s.60]. Göründüyü kimi, M.Quliyev klassik Füzulini təftiş etməklə məşğul olur, özündən üç əsr əvvəlin bədii düşüncəsinə inqilab nöqteyi-nəzərindən dəyərləndirməyə üstünlük verir. Sufizmə münasibətdə də M.Quliyev birtərəfli mövqe tuturdu. Bu cür baxış təkcə M.Quliyevin yox, ümumiyyətlə dövrün ideoloji təmayülllərindən irəli gəlirdi. Ədəbiyyatşünas N.Babayev bunu nəzərdə tutaraq yazırdı: "20-ci illər sovet ədəbiyyatşünasları hər hansı materializmi deyil, marksizm-leninizm nəzəriyyəsinin fəlsəfi əsasında duran dialektik və tarixi materializmi sənətin əsasına gətirməyi yeni-sosialist mədəniyyətini yaratmağın əsası hesab edirdilər" [16, s.85].

Ədəbiyyat tarixinin haradan başlanması probleminə tənqidçi Əli Nazim də qoşulmuşdur. Onun "Ədəbiyyatımız və ədəbiyyat tariximiz" məqaləsində "Ədəbiyyatımız fəqirdir", "ədəbiyyatımız müəyyən bir cığıra düşməmişdir", "ədəbiyyatımız böhran halındadır" kimi səslənən fikirlərə cavab axtarır və yazılı ədəbiyyat haqqında söylənən bu fikirlərə münasibət bildirir. Tənqidçi Azərbaycan ədəbiyyatını islamaqədərki və islamdansonrakı dövrlərə bölür. İslamdan əvvəlki dövr ədəbiyyatı haqqında bəhs edərkən Tomson, Radlov, Vamberi, Hartman və b. məşhur Ural-Altay dilləri üzrə məşhur professorların türk ədəbiyyatının tarixi qaynağı kimi göstərdikləri Orxon kitabələri, "Qudatğu bilig" və Turfan ədəbiyyatlarının olduğunu göstərərək "Əcaba, doğrudan da Azərbaycan ədəbiyyatı Orxon, yaxud Turfanla başlayır?" sualını verir və bu qənaətlə razılaşmadığını bildirir: "Mən buna qane ola bilmirəm. Çünki başqa millətlərin, məsələn, fransızların ədəbiyyat tarixinə baxacaq olursaq, ədəbiyyatın hansı xalq arasından çıxdığını və necə təkamül etdiyini daha açıq görmüş oluruq. Bunun üçün istər Orxan, istər Turfan və "Qudatqu bilik" ədəbiyyatımızın başlanğıcı sayıla bilməz" [18, s.4]. Tənqidçi bu fikirlə ona görə razılaşa bilmir ki, bunlar ədəbiyyatımızın daha təkamül etmiş və irəliləmiş səhifələridir. Bunlardan daha əski, daha, daha ibtidai və xəlqi şeylər bunları doğurmuşdur. Ona əsaslanır ki, bu kitabələr yazıldığı zaman türklər artıq şəhərli olmağa başlamışlardı. Bu da onu göstərirdi ki, türklər həm ictimai vəziyyətcə, həm yaşadığı həyatca, həm də bədii düşüncə etibarilə müəyyən dövr keçib gəlmişdi.

Ə.Nazim də M.K.Ələkbərli kimi ədəbiyyat tarixini daha da irəliyə çəkmək istəyir. Çünki bu əsərlər ona görə Azərbaycan ədəbiyyatının başlanğıcı sayıla bilməz ki, onlar formalaşmış ədəbiyyat nümunələridir. Bunun üçün tənqidçi türk tarixinin ən uzaq nöqtələrinə nəzər salmağın vacib olduğunu bildirir.

İslamdan sonrakı ədəbiyyat tarixinə gəldikdə isə bunun da islamdan əvvəlki qədər az məlum, qarışıq olduğunu söyləyir. Ona görə ki, bu dövrdə türk xalqları bir-birindən ayrılmış, müxtəlif təsirlər altına girərək başqa mühitlərdə inkişaf etmişdir. Digər tərəfdən iqtisadi cəhətdən mövcud vəziyyətləri onların məfkurələrində müəyyən ayrılıqlar yaratmışdır. Məqalədən görünür ki, Ə.Nazimin ədəbiyyat tarixi haqqında təsəvvürlərinə ədəbi prosesdə dərc edilən məqalələr öz təsirini göstərmişdir. Çünki o, bir tənqidçi idi, ədəbiyyat tarixçisi deyildi, elə buna görə də ədəbiyyat

tarixçisinin fikirlərinə söykənərək yazırdı: “Bu və başqa ədiblərə görə islamdan sonrakı türk ədəbiyyatı da kəşf edilməmiş qiymətli mədən kimi örtülü qalmış (bu, S.Mümtazın fikridir-A.M.) və istifadə edilməz bir hala gəlmişdir. Bunun üçün biz yalnız azərbaycanlıların ədəbiyyatndan bəhs etmək məcburiyyətində qalırıq. Çünki əks təqdirdə bu gün 26-ya yaxın olan türk-tatar şivələrinin birər-birər ədəbiyyatlarını tədqiq etmək lazım gəlir ki, güc olduğu kimi iqtidarımız xaricindədir” [18, s.4].

Ə.Nazim islamdan sonrakı ədəbiyyatı “mərkəzləşmiş bir ədəbiyyat” olmadığı üçün “mənşəyi bəlli” olmadığını bildirir. Bütün bunlar tənqidçidə ədəbiyyat tarixinin sistemli şəkildə araşdırılması fikrini irəli sürməyə cəsarət verir. Buradan da görünür ki, Ə.Nazim ədəbiyyat tarixçisi olmasa da, ədəbiyyat tarixinin yazılması gərəkliliyini ilk dərk edənlərdən olmuşdur. “Ədəbiyyatımız və ədəbiyyat tariximiz” məqaləsində qoyulan problemlər bunu deməyə əsas verir ki, tənqidçi ədəbiyyat tariximizi daha əvvəllərdə görmək istəyir və bunun üçün axtarışlara ehtiyac görür.

Bir neçə il sonra “Azerbaydjanskaya literatura” araşdırmasında Ə.Nazim Azərbaycan ədəbiyyatının başlanğıcını XIII əsrdən başlamağın mümkünlüyünü ifadə edir. Ə.Nazimə görə Azərbaycan ədəbiyyatının başlanğıcını Həsənoğlu ilə şərti olaraq başlamaq olar. Ona görə şərti qəbul edir ki, Həsənoğlu faktoru hələ tam olaraq öz təsdiqini tapmamışdı. O yazırdı: “Həsənoğlunun adına yazılan qəzəllər sonrakı ədəbi əsərlərlə yalnız dil baxımından ümumilik təşkil edir, üslubi münasibət cəhətdən isə fars lirikasını təqliddən ibarətdir” [14, s.99]. Ədəbiyyatşünas N.Babayev Ə.Nazimin Həsənoğlu qəzəlini dil faktoru baxımından dəyərləndirməsi haqqında yazır: “Ə.Nazimin bu məsələyə münasibəti təsadüfi deyildi. Onun ədəbiyyat tarixi konsepsiyası bütövlükdə o zaman konkret milli ədəbiyyatları, o cümlədən Azərbaycan ədəbiyyatını “vahid türk ədəbiyyatına” müəyyən mərhələ, təmayül kimi daxil edən nəzəriyyəyə qarşı yönəlmişdi” [16, s.54]. Sonrakı ədəbiyyatşünaslıq Həsənoğlunun daha bir anadilli qəzəlini aşkara çıxararaq onun ədəbiyyat tariximizdəki yerini düzgün müəyyənləşdirmişdir.

## Nəticə / *Conclusion*

Beləliklə, Azərbaycan ədəbiyyatşünaslığında milli ədəbiyyatın haradan başlanması haqqında müxtəlif fikirlərin olduğunu görürük. Bu fikirlərin müxtəlifliyinin bir neçə səbəbi var idi. Hər şeydən əvvəl, ədəbiyyat tariximiz hələ kifayət qədər araşdırılmadığından elmi təsəvvür formalaşmamışdı. İkinci səbəb isə, elmi yanaşmadan irəli gəlirdi. Bir elmi yanaşmaya görə dil faktoru əsas götürülür və yalnız anadilli nümunələr daxil edilirdi. Başqa bir yanaşmaya görə isə, başqa dildə yazan şairlər də ədəbiyyat tarixinə daxil edilirdi.

Azərbaycan ədəbiyyatı tarixçiliyində ədəbiyyatın başlanğıc mövzusu bu gün də ciddi müzakirə olunan məsələlərdən biridir. Bir çox tədqiqatlarda “Kitabi-Dədə Qorqud” dastanı ilə yazılı ədəbiyyatın müəyyən bağlılığı haqqında fikirlər söylənsə də, mülahizələrin təsdiqini tapan əsaslı nümunələr verilməmişdir. Akademik İsa Həbibbəyli “Kitabi-Dədə Qorqud”u yazılı ədəbiyyat abidəsi olaraq roman-epopeya hesab etməklə fikrini əhatəli, məntiqi dəlil və əsaslandırmalarla təsdiqləmişdir. Və beləliklə, akademikin Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyasında Azərbaycan ədəbiyyatının başlanğıcı kimi “Kitabi-Dədə Qorqud” əsəri götürülür [Bu barədə ətraflı bax:19; 20].

## Ədəbiyyat / *References*

1. Köçərli, F. Seçilmiş əsərləri. – Bakı: Azərbaycan EA nəşriyyatı, 1963.
2. Кочарлинский, Ф. Литература азербайджанских татар. – Тифлис: 1903. – с.54.
3. Köçərli, F. Azərbaycan ədəbiyyatı. I c. – Bakı: Elm, 1978. – 598 s.

4. Zeynallı, H. İsmayıl Hikmətin "Azərbaycan ədəbiyyatı tarixi". "Azərbaycanı öyrənmə yolu". 1930, №3. – s.61-62.
5. Ruqiyyə, Qənbər qızı. Firudin bəy Köçərli və onun "Azərbaycan ədəbiyyatı" əsəri// Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı. – Bakı: Elm, 1978. – s.8-67.
6. Mümtaz, S. Azərbaycan ədəbiyyatının qaynaqları. – Bakı: Yazıçı, 1986.
7. Tağıyev, R. Görkəmli tədqiqatçı-ədəbiyyatşünas // Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. – Bakı: Yazıçı, 1986. – s.5-22.
8. Abid, Ə. Azərbaycan türklərinin ədəbiyyatı tarixi (Tərtibçi, çapa hazırlayan və ön söz müəllifləri B.Əhmədov və Ə.Şamil). – Bakı: Elm və təhsil, 2016. – 240 s.
9. Quliyev, M. Aşıq Pəri və müasirləri. "İnqilab və mədəniyyət", 1928, №9. – s.48-49.
10. Hikmət, İ. Azerbaycan edebiyatı tarihi, I-II. Hazırlayan Yrd. Doç. Dr. Parvana Bayram. – Ankara: Akçağ. – 510 s.
11. M.F.Köprülü. Türk edebiyatı notları, Külliyyat, 7. – İstanbul: 1915, Alfa-Tarih. – 448 s.
12. M.F.Köprülü. Edebiyat araştırmaları, Külliyyat, 6. – İstanbul: 1914, Alfa-Tarih. – 840 s.
13. Назим, А. Азербайджанская литература. «Печат и революсия», 1929, т.7.
14. Abid, Ə. Zərərli tənqidlər. "İnqilab və mədəniyyət", 1929, №10. – s.31-34
15. Şəmsizadə, N. Azərbaycan ədəbiyyatşünaslığı. – Bakı, 1998. – 290 s.
16. Babayev, N. Ədəbi mübahisələr (Azərbaycan sovet ədəbiyyatşünaslığının təşəkkülü). – Bakı: Yazıçı, 1986. – 179 s.
17. Кулиев, М. Октябр и тюркская литература. – Баку: Аз. ГНИИ, 1930. – с.78.
18. Nazim, Ə. Ədəbiyyatımız və ədəbiyyat tariximiz. "Yeni yol", 1925, 4 yanvar.
19. Həbibbəyli İ. Azərbaycan ədəbiyyatının dövrləşdirmə konsepsiyası vı inkişaf mərhələləri. – Bakı: Elm, 2019, – 368 s.
20. Həbibbəyli İ. Kitabi-Dədə Qorqud: yazılı epos və ya epopeya. – Bakı: Elm, 2020, – 278 s.


## Вопросы начала азербайджанской литературы

**Айтен Мушкиева**
Диссертант
Гянджинский Государственный Университет

**Резюме.** В статье анализируются вопросы о начале литературы на этапе формирования азербайджанского литературоведения. Отмечается, что в начале XX века в историографии азербайджанской литературы вопрос о начале литературы был одной из основных тем обсуждения. Такие исследователи как Ф.Кочарли, Ю.Везиров, Э.Абид, И.Хикмет, М.Ф.Кёпрюлю, А.Назим, М.Гулиев, А.Мусаханлы, Дж.Эфендизаде, М.К.Алекберли в своих статьях и трудах выражали мнение о всевозможных причинах возникновения художественного мышления народа. Впервые вопрос о начале литературы встречается в начале XX века. Для того, чтобы начать исследования о названии азербайджанской литературы, одним из основных встал вопрос определения начала её возникновения. Судя по исследованиям, в азербайджанском литературоведении имелись различные мнения о начале возникновения национальной литературы. Различие этих мнений имеет свои причины. Прежде всего, вследствие недостаточного исследования истории литературы ещё не было сформировано научное представление. Во-вторых, дело было в научном подходе.
**Ключевые слова:** литературоведение, история литературы, начало литературы, родной язык, фарсидский